# "AZƏRBAYCAN RESPUBLİKASINDA DÖVLƏT UŞAQ MÜƏSSİSƏLƏRİNDƏN UŞAQLARIN AİLƏLƏRƏ VERİLMƏSİ (DE-İNSTİTUSİONALİZASİYA) VƏ ALTERNATİV QAYĞI SAHƏSİNDƏ 2010-CU İLDƏ GÖRÜLMÜŞ İŞLƏR

"Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (De-institusionalizasiya) və alternativ qayğı Dövlət Proqramı" üzrə 2010-cu il üçün Fəaliyyət planı hazırlanmış, digər qurumların rəy və təklifləri nəzərə alınaraq təsdiq olunmuşdur. Nəzərdə tutulan tədbirlərin icrası ilə bağlı bir sıra işlər görülmüşdür.

2009-cu ildə hazırlanmış "Müəssisədə yaşayan uşaqların ailələrə verilməsi və alternativ qayğıya cəlb edilməsi" pilot layihəsinin həyata keçirilməsi üçün Azərbaycan Respublikası Təhsil Nazirliyi, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və BMT-nin Uşaq Fondu (UNİCEF) arasında 9 mart 2010-cu il tarixində imzalanmış birgə əməkdaşlıq haqqında "Anlaşma Memorandumu" 2010-cu il 24 may tarixində Azərbaycan Respublikası Prezidentinin 926 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir. Layihənin məqsədi pilot seçilmiş rayonda uşaqların bioloji və ya alternativ ailələrə verilməsi və alternativ qayğıya cəlb edilməsi, risk qrupuna daxil olan uşaqların müəssisəyə düşməsinin qarşısının alınması üçün yerli səviyyədə uşaqların müdafiəsinin təmin edilməsidir. Layihənin icrası ilə bağlı Tədbirlər Planı hazırlanmış və digər icraçı qurumların rəy və təklifləri nəzərə alınaraq təsdiq edilmiş və icra üçün digər tərəfdaş qurumlara göndərilmişdir.

Eyni zamanda, valideyn himayəsindən məhrum uşaqların ailədə yaşamaq hüququnu təmin etmək məqsədilə onlar üçün ailəni əvəz edən alternativ xidmətlərin yaradılması işinə də başlanmışdır. 16 mart 2010-cu il tarixində Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə Avstriyanın "Hilfsverk Avstriya" beynəlxalq təşkilatı arasında "Yerli hakimiyyət orqanları ilə qeyri-hökumət təşkilatları arasında himayədar (foster) qayğı və ailə əsaslı xidmətlər üzrə əməkdaşlıq modelinin işlənib hazırlanması" layihəsinin həyata keçirilməsi məqsədilə Qrant Sazişi imzalanmışdır. Qrant Sazişi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 123 s nömrəli, 2010-cu il 4 may tarixli Sərəncamı ilə təsdiq edilmişdir. Layihə Avropa Komissiyası və Avstriyanın "Hilfsverk Beynəlxalq" təşkilatının maliyyə dəstəyi ilə həyata keçirilir.

Layihənin məqsədi Azərbaycanda alternativ qayğı növü olan himayədar (foster) ailə sisteminin yaradılmasıdır. Layihə çərçivəsində himayədar ailələrin və uşaqların seçim meyarları, himayədar ailələrin maliyyələşdirmə mexanizmləri hazırlanacaqdır. Xəzər rayonu ərazisindəki internat məktəblərində yaşayan və övladlığa verilməsi mümkün olmayan, himayədar ailələrə veriləcək 50 nəfər uşaq və 50 himayədar ailə seçiləcəkdir. Layihə çərçivəsində "Hilfsverk Avstriya" təşkilatı tərəfindən cəlb edilmiş beynəlxalq ekspertin iştirakı ilə "Himayədar (foster) qayğı xidmətlərinin standart və qaydaları", "Ailə tipli kiçik qrup evlərinin standart və qaydaları" adlı sənəd layihələri hazırlanmışdır. Hazırlanmış sənədlərin layihəsi Azərbaycan Respublikası Təhsil Nazirliyinə təqdim olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 926 nömrəli, 24 may 2010-cu il tarixli Sərəncamı və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 123 s nömrəli, 2010-cu il 4 may tarixli Sərəncamının səmərəli icrasını və hər iki layihənin Tədbirlər Planına uyğun olaraq fəaliyyətlərin əlaqələndirilməsini təmin etmək məqsədilə Xəzər və Suraxanı Rayon İcra hakimiyyətləri başçılarının müvafiq sərəncamları ilə hər iki rayonda Koordinasiya Komitələri yaradılmışdır. Koordinasiya Komitəsinin tərkibinə Sosial Müdafiə Mərkəzinin müdiri, Rayon Polis İdarəsinin Yetkinlik yaşına çatmayanlarla profilaktik işin təşkili bölməsinin müdiri, birləşmiş şəhər xəstəxanasının baş həkimi, VVAQ şöbəsinin müdiri, Rayon məhkəməsindən bir nəfər hakim, bələdiyyə sədri, Rayon İcra Hakimiyyəti nəzdində fəaliyyət göstərən Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın katibi, Rayon İcra Hakimiyyətinin Təhsil, Səhiyyə və Mədəniyyət şöbəsinin müdiri cəlb edilmişdir.

Koordinasiya Komitəsi aşağıdakı vəzifələri həyata keçirir:

- Pilot seçilmiş rayonlarda risk qrupuna daxil olan uşaqlar haqqında əldə olunmuş məlumatları De-institutlaşma və Uşaqların Müdafiəsi İdarəsinə yönəldir.

- Pilot seçilmiş rayonlarda uşaqların rifahının yaxşılaşdırılması məqsədilə zəruri xidmətləri müəyyənləşdirərək onların təşkili ilə bağlı müvafiq orqanlar qarşısında vəsatət qaldırır.
- Risk qrupuna daxil olan uşaq və ailələri böhrana məruz qoyan əsas səbəbləri araşdırır və onların aradan qaldırılması istiqamətində yerli dövlət qurumları qarşısında vəsatət qaldırır.
- Mütəmadi olaraq ayda bir dəfə iclas keçirir, zəruri hallarda isə növbədənkənar iclas keçirir.
- Görülən işlər barəsində De-institutlaşma və Uşaqların Müdafiəsi İdarəsinə və müvafiq Rayon İcra Hakimiyyəti rəhbərliyinə rüblük hesabat verir.

Dövlət Proqramı çərçivəsində Təhsil Nazirliyi tərəfindən hər iki rayon üzrə işə cəlb edilmiş 6 nəfər uşaq müdafiəsi üzrə mütəxəssis tərəfindən Xəzər və Suraxanı rayonlarında layihənin icrası ilə bağlı vəzifələr yerinə yetirilir. Hər iki rayonda uşaqların müdafiəsi ilə əlaqədar müraciətlərə Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi Komissiyaları ilə birgə baxılır və müvafiq tədbirlər görülür. Eyni zamanda, onlar görülən işlər barədə ayda bir dəfə Koordinasiya Komitəsinə və Təhsil Nazirliyinə hesabat verirlər. Layihə çərçivəsində rayon ərazilərində uşaqların müəssisələrə düşməsinin qarşısı alınır, alternativ ailə qayğı sistemi və icma əsaslı sosial xidmətlər təşkil edilir. Layihənin uğurla başa çatması nəticəsində uşaqlar üçün etibarlı müdafiə sistemi qurulacaq, övladlığa, qəyyumluğa və himayədarlığa veriləcək uşaqlar, namizəd ailələr üzrə məlumat bankı yaradılacaqdır.

Hər iki layihəyə əsasən, Xəzər rayonundakı dövlət uşaq müəssisələrində yaşayan, övladlıq, qəyyumluq və ya himayədar ailələrə verilməsi mümkün olmayan uşaqlar üçün ailə tipli kiçik həcmli ev yaradılacaq, qəyyumluğa və himayəyə veriləcək uşaqlar və bununla bağlı namizəd ailələr üzrə məlumat bankı hazırlanacaqdır. Uşaqların müəssisələrə düşməsinin qarşısının alınması, onların müdafiəsinin həyata keçirilməsi və ailələrə verilmiş uşaqların vəziyyətinin dövri monitorinqinin aparılması üçün sosial işçilər hazırlanacaqdır.

Bununla bağlı artıq müvafiq tədbirlər görülmüşdür. Belə ki, Dövlət Proqramının Tədbirlər Planının 6-cı bəndinin icrasını təmin etmək üçün 2010-2011-ci tədris ilində Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutunda “Sosial iş” ixtisası üzrə 9 aylıq kurs təşkil edilmişdir. Dövlət uşaq müəssisələrində tərbiyəçi vəzifəsində çalışanlar içərisindən 16 nəfər seçilərək kursa cəlb olunmuşdur. Bununla yanaşı, kursun tədris proqramı (kurrikulumu) hazırlanmış və təsdiq olunmuşdur. Kursun 2010-2011-ci il tədris ili üçün maliyyə xərcləri Əqli Sağlamlıq Təşəbbüsü Təşkilatı tərəfindən ödənilir.

Övladlarına qayğı göstərə bilməyən ailələrin və onların uşaqlarının rifahının yaxşılaşdırılması, onların müəssisələrə düşməsinin qarşısının alınması məqsədilə yerlərdə uşaqlara və ailələrə dəstək xidmətlərinin yaradılması işinə davam etdirilir.

Belə ki, Nitqi qüsurlu uşaqlar üçün 14 №-li internat məktəbi Göyçay şəhər internat orta məktəbi, Lənkəran şəhər sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi internat məktəblərinin nəzdində alternativ qayğı mərkəzlərinin yaradılması məqsədilə müvafiq inventar və avadanlıq alınmış, mərkəzdə işləyəcək işçi heyətinin bacarıqlarının yeni tip xidmətlərin iş fəaliyyətinə uyğun təmin edilməsi məqsədilə təlimlərə cəlb olunmuşlar. Qeyd üçün bildiririk ki, 268 nəfər uşağın Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən beş günərzi-qayğı və rebilitasiya-inkişaf mərkəzlərinin xidmətlərinə cəlb olunmaqla onların dövlət uşaq müəssisələrinə yerləşdirilməsinin qarşısı alınmışdır.

Bununla yanaşı, böhran vəziyyətində olan və övladlarını dövlət uşaq müəssisələrinə yerləşdirmək üçün İcra Hakimiyyətlərinə müraciət etmiş və müvafiq sərəncam almış 15 ailəyə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birgə müvafiq dəstək göstərilmiş və 28 uşağın müəssisəyə düşməsinin qarşısı alınmışdır. Eyni zamanda, uşaqların dövlət uşaq müəssisələrinə yerləşdirilməsinin qarşısının alınması məqsədilə müvafiq yerli biznes strukturları ailələrə dəstək işinə cəlb edilmişdir. Belə ki, 6 ailəyə dəstək göstərilməklə 11 uşağın müəssisəyə düşməsinin qarşısı alınmışdır. Rayon və Şəhər İcra hakimiyyətlərinin sərəncamına əsasən müəssisələrdən bioloji ailələrinin və yaxın qohumlarının himayəsinə 15 uşaq qaytarılmışdır. Uşaqların ailələrə

qaytarılması üçün icra hakimiyyətlərinin müvafiq komissiyasının, Təhsil Nazirliyinin əməkdaşları tərəfindən ailələrin mənzil şəraitinə baxış keçirilmiş və ailənin gəliri araşdırılmışdır.

Övladlığa uşaq götürmək arzusunda olan vətəndaşların və övladlığa verilməsi mümkün olan uşaqların siyahısı dəqiqləşdirilmiş və Təhsil Nazirliyində məlumat bazası yaradılmışdır. Son 6 ay ərzində Təhsil Nazirliyinin övladlığa götürülən uşaqların mərkəzləşdirilmiş siyahısında olan 14-17 yaş arası 8 uşaq övladlığa verilmişdir. Təhsil Nazirliyində övladlığa götürülməsi mümkün olan uşaqların mərkəzləşdirilmiş qeydiyyatında hal-hazırda 27 nəfər uşaq var. Onlardan 18 nəfəri 14-17 yaş arasında olan uşaqlar, 9 nəfəri isə 5-11 yaş arasında sağlamlıq imkanları məhdud olan uşaqlardır. Eyni zamanda, Təhsil Nazirliyi tərəfindən Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyaları ilə birlikdə övladlığa, himayəyə və öz bioloji ailələrinə verilmiş uşaqlara nəzarətin təşkili və onların vəziyyətinin dövri monitorinqinin aparılması həyata keçirilir.

Uşaqların hüquqlarının müdafiəsi sahəsində görülən işlərdən biri də uşaqlara doğum haqqında şəhadətnamə və şəxsiyyət vəsiqələrinin alınmasıdır. Belə ki, Ədliyyə Nazirliyinin müvafiq dəstəyi ilə 2009-cu ildə 33 nəfər uşağa, 2010-cu ildə isə 31 nəfər uşağa doğum haqqında şəhadətnamə alınmışdır. Dövlət Miqrasiya Xidməti ilə sıx əməkdaşlıq çərçivəsində 3 nəfər məzuna şəxsiyyət vəsiqəsi alınmışdır. Səhiyyə Nazirliyi ilə sıx əməkdaşlıq çərçivəsində 1 uşağın göz əməliyyatı və 1 nəfərin onkoloji qan xəstəlikləri üzrə dərman preparatları ilə 2 ay yarım müddətində təmin olunması ilə bağlı tədbirlər görülmüş, 1 nəfər uşağa isə eşitmə aparatı alınmışdır. Bununla yanaşı, dövlət uşaq müəssisələrində yaşayan 10 nəfər uşağa burun-boğaz əməliyyatının edilməsinə köməklik göstərilmişdir.

Bununla yanaşı, Daxili İşlər Nazirliyi ilə sıx əməkdaşlıq çərçivəsində küçə həyatına məruz qalmış 10 nəfər uşağın təhsilə cəlb edilməsi və təhlükəsizliyinin təmin edilməsi məqsədilə dövlət uşaq müəssisələrinə yerləşdirilməsi üçün müvafiq tədbirlər görülmüşdür. Küçə həyatına məruz qalmış 9 nəfər uşaq "Ümid Yeri" xeyriyyə cəmiyyətinin sığınacağından, 5 nəfər uşaq isə Azərbaycan Uşaq Birliyi təşkilatı tərəfindən Təhsil Nazirliyinə yönəldilmiş və dövlət uşaq müəssisələrinə yerləşdirilmişdir.

Təhsil Nazirliyinin nəzdində dövlət uşaq müəssisələrində yaşayan uşaqlar barədə daim yenilənən məlumat bazası yaradılmışdır. Bazaya daxil edilmiş məlumatlara əsasən hal-hazırda 46 dövlət uşaq müəssisəsində 9874 nəfər uşaq təlim-tərbiyə alır. Onlardan 6014 nəfəri yalnız təhsil alır. Qalan 3860 nəfəri müəssisədə təhsil alır və gecələyir. Bu uşaqların müəssisədə gecələməsinə baxmayaraq onların 86 faizi müəssisəyə müvəqqəti olaraq yerləşdirilmiş uşaqlardır. Müəssisədə gecələyən uşaqların evə getmə tezliyinə nəzər saldıqda isə görürük ki, hər şənbə-bazar günü evə gedənlərin sayı 1356 nəfər, hərdənbir evə gedənlərin sayı 1914 nəfər, daim müəssisədə yaşayıb evə getməyən uşaqların sayı isə 590 nəfərdir. Müəssisədə yaşayan uşaqların əksəriyyəti (yəni 3109 nəfəri) 7-16 yaş arasında olan uşaqlardır. Bununla yanaşı, müəssisədə gecələyən 3860 nəfər uşaqdan 1473 nəfəri sağlamlıq imkanları məhdud olan uşaqlardır. Dövlət uşaq müəssisələrindəki uşaqların təlim-tərbiyəsi ilə 2530 nəfər pedaqoji işçi məşğul olur.

Qeyd olunan tədbirlərin həyata keçirilməsinin nəticəsi olaraq dövlət uşaq müəssisələrindəki uşaqların sayında azalma müşahidə olunmuşdur. Belə ki, dövlət uşaq müəssisələrində gecələyən uşaqların sayı 2008-ci ildə 4055, 2009-cu ildə 3945, 2010-cu ildə isə 3860 nəfər olmuşdur.

Dövlət Proqramından irəli gələn bir sıra mühüm vəzifələrin kompleks şəkildə yerinə yetirilməsinin zəruriliyini, dövlət proqramının əhatəsində olan müəssisələrin fəaliyyətini dövlət proqramının vəzifələrinə uyğun qurulmasının vacibliyini, uşaqların müdafiəsi ilə bağlı qurumlararası koordinasiyanın effektiv şəkildə təmin edilməsinin vacibliyini nəzərə alaraq, "Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 5 nömrəli, 13 yanvar 2010-cu il tarixli qərarına əsasən "Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (De-institusionalizasiya) və alternativ qayğı Dövlət Proqramı (2006-2015-ci illər)"nın səmərəli idarə olunmasının təmin edilməsi məqsədi ilə Azərbaycan Respublikası Təhsil Nazirliyinin nəzdindəki İşçi Qrupunun bazasında Azərbaycan Respublikası Təhsil Nazirliyinin nəzdində De-institutlaşma və Uşaqların Müdafiəsi İdarəsi yaradıldı.

İdarənin qarşısında duran əsas vəzifələr aşağıdakılardan ibarətdir:

- Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin icrası ilə bağlı əlaqədar dövlət və qeyri-dövlət təşkilatları arasında koordinasiyasını təmin etmək;
- Təhsil Nazirliyinin sistemində olan dövlət uşaq müəssisələri və alternativ qayğı müəssisələrinə təşkilati-pedaqoji, tədris-metodiki rəhbərliyi həyata keçirmək, bu tipdən olan müəssisələrin fəaliyyətlərini Dövlət Proqramının tələblərinə uyğun qurulmasını təmin etmək;
- Dövlət uşaq müəssisələrindən uşaqların bioloji və ya alternativ ailələrə verilməsini təmin etmək və onların vəziyyətinin dövrü monitorinqini həyata keçirmək.
- Dövlət uşaq müəssisələrində olan uşaqların sayının artmasının qarşısını almaq məqsədilə risk qrupundan olan (uşaqların ailələrdən belə müəssisələrə verilməsi baxımından) uşaqlar və ailələr arasında sistemli şəkildə preventiv tədbirlər həyata keçirmək;
- Övladlıq, qəyyumluq (himayə), himayədarlığa verilmə prosesində birbaşa iştirak etmək;
- Valideyn himayəsindən məhrum olmuş, sağlamlıq imkanları məhdud və müdafiəyə ehtiyacı olan uşaqların rifahının yaxşılaşdırılması ilə bağlı tədbirlər görmək;

De-institutlaşma və Uşaqların Müdafiəsi İdarəsi Təhsil Nazirliyi sistemində olan dövlət uşaq müəssisələrində təlim-tərbiyə alan və yerləşdirilən yetim və valideyn himayəsindən məhrum olmuş uşaqların vaxtında aşkar edilməsi, yerləşdirilməsi, övladlığa, qəyyumluğa (himayəyə) və himayədarlığa verilməsi və rəsmi statistik hesabatların alınması ilə bağlı işlərin Rayon və Şəhər İcra hakimiyyətləri nəzdində fəaliyyət göstərən Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar ilə sıx əməkdaşlıq çərçivəsində fəaliyyət göstərir. Bundan əlavə, İdarə risk qrupuna daxil olan, sağlamlıq imkanları məhdud uşaqların vaxtında aşkar olunması və onların müdafiəsi ilə bağlı preventiv tədbirlərin görülməsi üçün təhsil şöbələrinin uşaq mühafizəsi üzrə məsləhətçiləri, ümumtəhsil məktəblərində uşaq birliyinin rəhbərləri, psixoloq və təşkilatçı vəzifəsində çalışan, məktəbəqədər müəssisələrində isə metodist vəzifəsində çalışan əməkdaşları ilə sıx əməkdaşlıq edir.

Dövlət Proqramının Tədbirlər Planının 9-cu və 20-ci bəndlərinin icrası istiqamətində 2010-cu il 18 fevral tarixində Təhsil Nazirliyinin nəzdindəki De-institutlaşma və Uşaqların Müdafiəsi İdarəsinin ümumi rəhbərliyi altında fəaliyyət göstərən "Uşaq Qaynar Xətt" xidməti yaradılmışdır. Bu xidmət uşaqlara psixoloji yardım üçün yaradılmış və 4802280, 050 6802280, 051 8801180 nömrələrinə daxil olan zənglər pulsuzdur. Xidmət 24 saat fəaliyyət göstərir. "Uşaq Qaynar Xətt" xidmətinə uşaqlar ehtiyacları olduğu zaman müraciət edərək, onları narahat edən mövzu haqqında danışa bilərlər. "Uşaq Qaynar Xətt" xidmətinin əməkdaşları uşağın zənginin anonimliyini qoruyur və yalnız uşağın özünün arzusu əsasında probleminin həlli ilə bağlı müvafiq qurumlar qarşısında vəsatət qaldıra bilirlər. Uşağın köməksiz qaldığı hallarda onun vaxtında aşkarlanması, zərərli hallardan qorunması və müdafiə ilə təmin edilməsi üçün "Uşaq Qaynar Xətt" xidməti mini avtobus ilə təmin edilmişdir. Zəruri hallarda psixoloq və sosial işçilərdən ibarət mobil qrup uşağın yanına gedərək, yerindəcə ona birbaşa kömək etmək imkanına malikdir.

"Uşaq Qaynar Xətt" xidmətində çalışan üç nəfər psixoloq, sosial işçi və bir nəfər komanda rəhbəri uşağa ilkin psixoloji yardım göstərir. Onları dəstək, reabilitasiya, bərpa mərkəzlərinə və digər xidmətlərə yönəldir, habelə təxirəsalınmaz köməklik göstərir.

"Uşaq Qaynar Xətt" xidmətinə fəaliyyətə başladığı vaxtdan bu günədək 638 müraciət daxil olmuşdur.

Müraciətçilər içərisində uşaqların sayı 166 nəfər, valideynlər və ya himayəçilər tərəfindən isə 478 müraciət edilmişdir.

- Təhsil sahəsini əhatə edən müraciətlərin sayı – 244
- Psixoloji problemlərlə edilən müraciətlərin sayı – 195
- Sosial müavinətlər və xidmətlərə aid müraciətlərin sayı – 88
- Hüquqi məsləhət yardımı ilə bağlı müraciətlərin sayı – 37

- Səhiyyə sahəsi ilə əlaqədar müraciətlərin sayı – 32
- Digər sahələr ilə bağlı zənglərin sayı – 42

Müraciətlərin əsas hissəsi təhsil sahəsinə aid olan müraciətlər təşkil edir. Qeyd olunan müraciətlər əsasən mərkəzləşmiş buraxılış imtahanları və ali məktəblərdə keçirilən qəbul imtahanları haqqında məlumat əldə etmək, imtahanqabağı inamsızlıq və həyəcandan irəli gələn problemlərlə bağlıdır. Müraciət edənlərin problemləri müəyyən edilərək onlara müvafiq məlumat verilir və psixoloji konsultasiya həyata keçirilmişdir.

Hüquq sahəsinə aid müraciətlərlə bağlı qanunvericiliyə uyğun olaraq müvafiq köməklik göstərilir. Ümumilikdə sağlamlıq imkanları məhdud olan uşaqlar üçün günərzi-qayğı və reabilitasiya mərkəzlərinin, tənha anaların uşaqları üçün xidmətlərin mövcudluğu barədə və inkluziv təhsilə cəlb olunmuş uşaqlara nəqliyyat xərcləri qismində müavinətin ayrılması ilə bağlı müraciətlər çoxluq təşkil etmişdir.

Ötən müddət ərzində mövcud qanunvericiliyin təhlil olunması və uşaqların müdafiəsi ilə bağlı qanunvericiliyə müvafiq dəyişikliklərin edilməsi məqsədilə UNİCEF-in texniki dəstəyi ilə beynəlxalq və yerli ekspertlər cəlb edilmişdir. "Uşaqların ailələrə və alternativ qayğı müəssisələrinə yerləşdirilməsi qaydaları", "Uşaq inkişaf və dəstək mərkəzinin nümunəvi əsasnaməsi", "Müvəqqəti sığınacağın nümunəvi əsasnaməsi", "Ailə və uşaqlarla sosial iş üzrə qaydalar" adlı normativ-hüquqi sənədlərin ilkin versiyası artıq hazırlanmış, baxılması və rəyin verilməsi üçün UNİCEF-in Baş ofisinə təqdim edilmişdir.

Dövlət uşaq müəssisələrin transformasiyası üzrə Baş Plana uyğun olaraq 2010-cu ildə transformasiyası nəzərdə tutulan müəssisələrin tipinin dəyişdirilməsi istiqamətində müvafiq tədbirlər görülür. Belə ki, dövlət uşaq müəssisələrinə hal-hazırda ayrılan vəsait, transformasiya zamanı qənaət ediləcək vəsait və yeni xidmətlərin yaradılması ilə bağlı tələb olunan əlavə xərclərlə bağlı maliyyə hesablamalar da daxil edilməklə hər bir müəssisə üçün transformasiya planı hazırlanır.

Dövlət Proqramının Tədbirlər Planının 20-ci bəndinin icrası istiqamətində hər il olduğu kimi "1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü" münasibətilə dövlət uşaq müəssisələrində yaşayan uşaqlar üçün 28-29 və 31 may 2010-cu il tarixlərində silsilə bayram tədbirləri təşkil edilmişdir. 28 may tarixində uşaq evlərinin məktəbəqədər yaşlı kontingenti üçün uşaq əyləncə mərkəzində bayram tədbirləri keçirilmişdir. 29 may tarixində internat məktəblərində yaşayan sağlamlıq imkanları məhdud uşaqlar üçün bayram konserti təşkil edilmişdir. 31 may tarixində Gənc Tamaşaçılar Teatrında Təhsil Nazirliyi tərəfindən təşkil edilmiş bayram tədbirində uşaq evləri və internat məktəblərinin musiqi və rəqs kollektivləri çıxış etmişdilər. Bayram tədbirlərində iştirak edən bütün uşaqlara müxtəlif hədiyyələr təqdim edilmişdir.

3 dekabr 2010-cu il tarixində Təhsil Nazirliyi və Azərbaycan Gözdən Əlillər Cəmiyyəti İctimai Birliyi tərəfindən Beynəlxalq Əlillər Gününə həsr edilmiş dəyirmi masada təşkil edilmişdir. Təşkil edilmiş tədbirdə Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Gənclər və İdman Nazirliyi, Mədəniyyət və Turizim Nazirliyi, Əhalinin Məşğulluq İdarəsinin məsul əməkdaşları və Açıq Cəmiyyət İnstitutu Yardım Fondunun nümayəndələri iştirak edirdi. Dəyirmi masada əlilliyi olan şəxslərin təhsil, səhiyyə, idman, məşğulluq, sosial inkişaf, sosial adaptasiya, və digər sahələrdə mövcud problemlər və onların aradan qaldırılması yolları müzakirə olunmuşdu. Bununla yanaşı, tədbirdə Açıq Cəmiyyət İnstitutu Yardım Fondunun maliyyə dəstəyi ilə həyata keçirilmiş "Danışan Kitabxana" layihəsinin təqdimatı keçirilmişdir.

Bununla yanaşı 2010-cu ildə uşaqların müəssisələrə düşməsinin qarşısının alınması məqsədilə Dövlət Proqramı çərçivəsində 3 reklam çarxı çəkilmiş və televiziya kanallarının birində yayımlanması ilə bağlı müvafiq tədbirlər görülmüşdür.

Dövlət Proqramının Tədbirlər Planının 16-cı bəndinin icrasını təmin etmək məqsədilə 2010-cu ildən De-institutlaşma və Uşaqların Müdafiəsi İdarəsi Avropa Komissiyası tərəfindən maliyyələşdirilən Avropa Sosial Şəbəkəsi arasında əməkdaşlıq qurulmuşdur. Ölkədə de-institutlaşma və uşaqların müdafiəsi sahəsində həyata keçirilən islahatlar Avropa Sosial Şəbəkəsi tərəfindən yüksək qiymətləndirilmiş və 2010-cu ildə Avropa Sosial Şəbəkəsinin internet saytında yerləşdirilən "Azərbaycanda De-institusionalizasiya səylərinə dəstək" adlı məqalə təşkilatın 28 üzv dövlətinə təbliğat məqsədilə göndərilmişdir. Bununla yanaşı ölkənin birinci xanımı

Mehriban xanım Əliyevanın Dövlət Proqramına xüsusi diqqət və qayğısını əks etdirən və Heydər Əliyev Fondunun dəstəyi ilə uşaqların müdafiəsi sahəsində görülən işlər barədə hazırlanmış sənədli filminin diktor mətni ilə ingilis dilində səsləndirilən versiyasının təbliğat məqsədilə Avropa Sosial Şəbəkəsi təşkilatının saytına yerləşdirilməsi qərarlaşdırılmışdır. Film BBC tərəfindən diktor mətni ilə səsləndirilmiş və saytda yerləşdirilməsi üçün təşkilata göndərilmişdir.

Bununla yanaşı, de-institutlaşma və himayədar (foster) qayğı xidmətləri sahəsində əhalinin maarifləndirilməsi ilə bağlı əhalinin məlumatlandırılması kampaniyası həyata keçirilir. Belə ki, "Müəssisədə yaşayan uşaqların ailələrə verilməsi və alternativ qayğıya cəlb edilməsi" və "Yerli hakimiyyət orqanları ilə qeyri-hökumət təşkilatları arasında himayədar (foster) qayğı və ailə əsaslı xidmətlər üzrə əməkdaşlıq modelinin işlənib hazırlanması" layihələri çərçivəsində yeni yaradılacaq xidmətlər barədə məlumatları əks etdirən bukletlər hazırlanmış, Xəzər rayonunun bütün qəsəbələrində yerləşən idarə və teşkilatlara, təhsil müəssisələrinə paylanmışdır. Hazırlanmış plakatlar isə royonun ictimai yerlerindən asılmışdır.

Eyni zamanda, Dövlət Proqramı çərçivəsində yaradılmış alternativ qayğı xidmətləri haqqında məlumatlandırma xarakterli "Uşaqlar ailədə böyüməlidir" adlı buklet çap edilmiş, müvafiq dövlət və qeyri-dövlət qurumlarına və KİV nümayəndələrinə təqdim edilmişdir.

23 dekabr 2010-cu il tarixində "Ambassador" otelində "Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (De-institusionalizasiya) və alternativ qayğı Dövlət Proqramı" çərçivəsində "2010-cu ilin yekunları və qarşıda duran vəzifələr" mövzusunda beynəlxalq konfrans keçirilmişdir. Tədbirdə Dövlət Proqramı çərçivəsində 2010-cu ilin yekunları və 2011-ci ildə görüləcək işlər barədə məlumat verilmişdir. Konfransda Türkiyə Respublikasının Sosial Xidmətlər və Uşaq Müdafiəsi Müdirliyinin, Şimali Kipr Türk Respublikasının Əmək və Sosial Xidmətlər Nazirliyinin Sosial Xidmətlər Müdirliyinin və Gürcüstan Respublikası Əmək, Səhiyyə və Sosial Problemlər Nazirliyinin Sosial Xidmətlər Agentliyinin rəhbər şəxsləri və sosial xidmətlər üzrə UNİCEF-in beynəlxalq ekspertləri iştirak etmişlər. Konfransda qonaqların de-institusionalizasiya prosesi və uşaqlar üçün sosial xidmətlərin təşkili ilə bağlı təqdimatları dinlənildi.

De-institutlaşma və Uşaqların Müdafiəsi İdarəsinə 2010-cu il ərzində 684 müraciət daxil olmuşdur. Onlardan 124-ü ərizə, 560-ı məktubdur. Daxil olmuş ərizə və məktublardan 115-i övladlıq, 182-si uşağın dövlət uşaq müəssisəsinə yerləşdirilməsi, 19-u uşağın bir dövlət uşaq müəssisəsindən digərinə köçürülməsi, 27-si dərs yükünün az olması ilə bağlı şikayət, 23-ü dövlət uşaq müəssisəsində yaşayan uşağın bioloji valideynlərinin himayəsinə qaytarılması, 33-ü doğum haqqında şəhadətnamənin və 4-ü isə şəxsiyyət vəsiqəsinin alınması, 20-si dövlət strukturlarından müvafiq sənəd layihələrinə rəy və təkliflərin verilməsi, 13-ü uşaqların təhsilə cəlb edilməsi, 15-i ailələrə ünvanlı sosial yardımın alınması ilə bağlı müvafiq köməkliyin göstərilməsi, 5-i sağlamlıq imkanları məhdud uşaqların müalicəsi, 64-ü isə Rayon və Şəhər İcra hakimiyyətlərindən övladlığa uşaq götürmək arzusunda olan vətəndaşlar barədə məlumatlardır. 164 müraciət isə dövlət uşaq müəssisələrinin rəhbərləri tərəfindən müəssisədə təmir işlərinin aparılması, QHT-lər tərəfindən təlimlərin təşkili və digər məsələlərlə bağlıdır.

Daxil olan məktub və ərizələrdən 29-u əsassız sayılıb, 5-i icradadır, 544-ü müsbət həll olunub. 106 müraciətin məzmunundan asılı olaraq müvafiq qanunvericilikdə nəzərdə tutulan qaydalar (prosedurlar) barədə məlumat (izahat) verilmişdir.